**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2024.2.127**

**DÜRDANƏ YUSİFOVA**

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNİN İLK ORTA ƏSR YAŞAYIŞ YERLƏRİ

*Aparılan arxeoloji tədqiqatlar və mənbə məlumatları sübut edir ki, Şimal-Qərb torpaqları Qafqaz Albaniyasının ərazi vahidliyində aid olmuşdur. Şimal-Qərb torpaqlarındakı yaşayış yerləri əsasən çay kənarlarında salınmış, yaşayış üçün müxtəlif sənətkarlıq sahələrinin inkişafını təmin edə biləcək təbii ehtiyatların olduğu və zamanla düşmən hücumlarından müdafiə olunmaq üçün əlverişli strateji mövqeyi olan yerlərə üstünlük verilmişdir. Cəmiyyətin tərəqqisi ilə əlaqədar yaşayış yerlərinin müxtəlif tip və formaları meydana gəlmişdi: kənd tipli yaşayış yerləri, şəhər tipli yaşayış məntəqələri, böyük şəhərlər. Yaşayış yerlərinin təşəkkül taparaq formalaşması prosesi istehsalın inkişaf səviyyəsi ilə müəyyənləşirdi. Mənbə məlumatlarında coğrafi koordinatları verilən Şimal-Qərb bölgəsinin ilk orta əsr yaşayış məntəqələrinin lokalizasiyasını maddi mənbələr əsasında dəqiqləşdirmək hazırkı dövrün aktual məsələlərindəndir.*

**Açar sözlər:** *Qəbələ, Torpaqqala***,** *Tatlı, Xalxal, siyasi mərkəz, arxeoloji, qala-şəhər.*

**Giriş**. Antik və İlk orta əsrlərdə Şimal-Qərb bölgəsi Qafqaz Albaniyasının ərazi vahidliyinə daxil idi. III-VII əsrlərdə Qafqaz Albaniyasının ərazisi Böyük Qafqaz sıra dağlarının şimalından başlayaraq, cənubda Kür-Araz çaylarının aşağı qovşağına qədər, indiki Muğan, Mil düzləri də daxil olmaqla, Paytakaran, Uti, Arsax nahiyələri, Girdiman (Qardman), Şakaşena, Kambisena, Çola, Lipin və.s vilayətlər daxil olmaqla, Qərbdə İberiyayadək, şərqdə Xəzər dənizinədək geniş ərazini tuturdu [5; 7, s. 46] Azərbaycanın müstəqillik əldə etdikdən sonra antik və ilk orta əsrlər dövrü yaşayış yerlərinin tədqiqi istiqamətində ardıcıl aparılan arxeoloji tədqiqatlar Gəncə-Qazax, Mil-Qarabağ, Şirvan-Abşeron, Naxçıvan və s. bölgələrimizi əhatə etmişdir.

Yaşayış yerləri kənd tipli yaşayış məntəqələri və şəhər tipli yaşayış yerləri olmaqla iki yerə bölünür. Böyük şəhərlər "nəhəng", "izdihamlı" inzibati və ticarət-sənətkarlıq mərkəzləri idi. Belə şəhərlər antik dövrdə yaranmışdır [1, s. 139]. Tədqiqatlar Albaniyada antik və ilk orta əsrlərdə hərbi məqsəd üçün tikilmiş şəhər-qalalar [19, s. 70-71] və digər yaşayış məntəqələrinin olduğunu göstərir. Ticarət yolları üzərində məntəqə rolunu oynayan sənətkarlıq mərkəzləri ticarət, həmçinin hərbi feodal əyanlarının iqamətgahı olmuşdur. Məlumdur ki, yaşayış məntəqələri tarixi kateqoriya olmaq etibarilə böyük şəhərlərə çevrilməsi uzun sürən tarixi prosesin və sinifli cəmiyyətin məhsulu hesab edilir. Əlverişli təbii-coğrafi, strateji, iqtisadi şəraitin və üstün landşaftın olması, karvan yollarının qovşağında yerləşməsi, şəhər tipli yaşayış məntəqələrin böyük şəhərlərə çevrilməsinin ilkin şərtlərindəndir. Antik İlk orta əsrlər dövrü yaşayış məntəqələrinin daxili həyatı, quruluşu, siyasi-ideoloji problemləri ilə bağlı dövrün mənbə məlumatlarının arxeoloji qazıntılarla uzlaşdırılması məsələlərinə dair K.V.Treverin, Z.M. Bünyadovun, E.A.Paxomovun, R.M.Vahidovun, İ.A.Babayevin, R.B.Göyüşovun, T.M.Məmmədovun, Q.M.Əhmədovun, F.Osmanovun, A.M.Məmmədovun, F.Məmmədovanın, F.Muradovanın, M.Xəlilovun, V.Kərimovun, A.Qaraəhmədovanın, İ.Babayevin, Q.C.Cəbiyevin tədqiqatları əhəmiyyətlidir.

Aparılan tədqiqatlarda Zaqafqaziya ərazisindən əlverişli təbii-coğrafi şəraitin olmasını

elmi əsaslarla sübut edir. Kaspi dənizi, Kür və Rioni çayı vasitəsilə Qara dənizə gedən Beynəlxalq İpək yolunun olması haqqında məlumat verilir [18, s. 161-162]. Kür çayı boyunca aparılan qazıntılar zamanı Albaniya ərazisində qədim və ilk orta əsr yaşayış yerlərinin (Səngər, Alpaut, Sarı Qaya, Şəhər Burnu, Torpaqqala) aşkar edilməsi Kür çayının gəmiçilik üçün əhəmiyyətli olduğunu təsdiq edir [10, s. 90].

**Antik və İlk orta əsr şəhərlərinin arxeoloji tədqiqi və yaşayış yerlərinin lokalizasiyası.** Antik və İlk orta əsrlər dövründə Albaniyanın siyasi-iqtisadi və mədəni mərkəzindən biri olan qədim Qəbələ şəhəridir. Albaniya dövlətinin qədim mərkəzi olan Qəbələ şəhəri qərblə, cənubla və şimalla ilə ticarət əlaqələrinə malik olan mərkəz şəhərlərdən idi. Qafqaz Albaniyasının siyasi-inzibati, dini-mədəni, ticarət və sənətkarlıq mərkəzlərindən biri olan Qəbələdə son dövr aparılan qazıntı işlərinin yekunları olaraq bu böyük şəhərin üstünlüyü maddi mənbələrlə sübut olunur. Qərb ticarət yolları İberiyanın ərazisindən keçirdi. Bu ticarət yolları Alazan çayının sahillərində yerləşən Qarağac adlı yerin yanında yerləşən böyük şəhərə doğru gedirdi. Qəbələ şərqdən Covurlu, qərbdən Qaraçayla sərhədlənir ki, bunlar da şəhərdən cənubda Ağzıbir adlanan yerdə birləşirlər. Şimal tərəfdə isə bulaqlardan axan suların açdığı dərə ilə əhatə olunub. X əsrin sonları-XI əsrin əvvəllərində bir sıra ictimai siyasi proseslərlə bağlı olaraq yaşayış yerlərində qismən dəyişiklik olub. Buna görə də şəhərin ortasından onu ikiyə bölən xəndək qazılıb xəndəkdən şimalda qalan "Səlbir" adlanan ərazidir [7, s. 119]. "Qala" adlanan digər ərazi su ilə dolu xəndəklə əhatələnib ki, bu xəndək boyunca da möhkəm qala divarları tikilmişdir. Qəbələdə 1926-cı ildən fasilələrlə, 1959-cu ildən isə sistemli şəkildə başlanmış arxeoloji tədqiqat işləri hazırkı dövrdə də davam etdirilir [7, s. 132-133].

2009-cu ildə Qəbələdə aparılmış arxeoloji qazıntılar zamanı çox saylı və rəngarəng çeşidli kirəmit nümunələrinin aşkar olunması burada orta əsrlər dövründə yaşayış binalarının və istehsalat xarakterli tikililərin üstünün daha çox məhz saxsı kirəmitlərlə örtüldüyü qeyd edilir. Bunun özü də yüksək şəhər mədəniyyətinin çox mühüm göstəricilərindən biri olduğu vurğulanır [11]. Tədqiqatlar zamanı əldə olunan pullar, fayans, farfor və seladon qab nümunələri orta əsrlərdə Qəbələnin İran, Çin və digər Şərq ölkələri ilə ticarət əlaqələrinin intensiv xarakter daşımasını göstərir. 2009-cu il tədqiqatları zamanı arxeoloqların əldə etdikləri qiymətli tapıntılardan biri də Qalada tapılan mis pul dəfinəsi və 40-dan çox mis sikkədir. Bu maddi nümunələrin tapılması orta əsrlərdə Qəbələdə zərbxananın olmasını təsdiq edən əsaslı mənbədir. 2009-cu ilin mövsümi tədqiqatlarını yekunlaşdıran Qəbələ arxeoloji ekspedisiyasının orta əsrlər dəstəsi belə qeyd edir: "Antik dövrə aid tapıntılar deməyə əsas verir ki, Qədim Roma alimi Böyük Plini (I əsr) və məşhur yunan alimi Klavdi Ptolemey (II əsr) tərəfindən Qəbələnin adının ilk dəfə olaraq yazılı mənbələrdə xatırladıldığı dövrdə şəhərin Qala hissəsində əzəmətli tikintiləri ilə diqqəti cəlb edən intensiv şəhər həyatı olub" [11, s. 251].

Qəbələ şəhər xarabalıqlarının Səlbir sahəsində 2012-ci ilin qazıntı mövsümündə aparılan tədqiqatlar nəticəsində əldə olunan tapıntılar dövrün tikili strukturunu, şəhərsalma problemini, həyat tərzini işıqlandırmağa kömək edir. Müdafiə istehkamı ilə əhatə olunmuş yaşayış yerində son antik, ilk orta əsrlər və orta əsrlər dövründə baş verən dəyişikliklər maddi mədəniyyət nümunələrində aydın izlənməkdədir. Yaşayış yerinin mərkəzi hissəsində VIII-X əsrləri əhatə edən mərhələ daha yaxşı izləndiyi halda, II-III və VII əsrləri əhatə edən mərhələ nisbətən zəif və müdafiə istehkamının yaxınlığında qorunub qalmışdır [2, s. 237-245].

İlk orta əsrlərin yaşayış yerlərindən biri olan Qax rayonu ərazisində yerləşən "Torpaqqala" abidəsidir. Burada R.M.Vahidovun rəhbərliyi ilə 1961-1967-ci illərdə arxeoloji tədqiqatlar aparılmışdır. Azərbaycanın şimal-qərb bölgəsinin Qax rayonu ərazisində Qanıx

çayının sol sahilində yerləşən Torpaqqala (Əyriçayın Qanıxa töküldüyü yerin yaxınlığında) şəhər xarabalığı aşkar edilmişdir. Yerləşdiyi təpənin uzunluğu 500 m, eni 15m-dən 160 m-dək, hündürlüyü 20-25 metr, sahəsi 4,5 ha qeydə alınmışdır. Təpənin Qanıx çayı tərəfdən dağılmaqda olan şimal-qərb kənarı 90° altında sıldırım, şimal-şərq və cənub-şərq kənarları isə yağış sularının tədricən yuması nəticəsində 35-45° enişlikdədir. Enişlik bəzi yerlərdə 60-70°-yə çatır. Yaşayış yeri çay səthindən 30-35 m, ətraf ərazidən isə 20-30 m hündürlükdə yerləşir. Aparılmış qazıntılar zamanı möhrə, çiy və bişmiş kərpicdən hörülmüş qala divarları, yaşayış binalarının qalıqları, gil, metal, daş və şüşədən hazırlanmış müxtəlif maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır. "Torpaqqala"nın şimal-şərqində yerləşən "Saqqızlı" deyilən yaşayış yerindən alban xristian qəbirləri aşkar etmişdir [10, s. 201]. Qəbiristanlıqda küp və xristian qəbirləri tədqiqata cəlb edilmişdir. "Torpaqqala"da eramızın ilk əsrlərindən XIV-XV əsrlərinədək həyat davam etmiş, Azərbaycan şəhərlərindən biri olduğu qeyd edilmişdir. "Torpaqqala" yaşayış yeri yaxınlığında yerləşən katakomba tipli qəbirdən tapılmış vaza eramızın III əsrə aid edilmişdir. Yaşayış yerinin mədəni qatlarında dulus kürələri, şüşə istehsalı ilə əlaqədar olan ocaq yerləri aşkar edilmişdir. Üç mədəni təbəqənin ümumi qalınlığı, sahənin relyefindən asılı olaraq 3,5-4 metrə çatdığı qeyd olunur. Yaşayış yeri aşkar edilmiş bina qalıqlarından, təndirlərdən, təsərrüfat quyularından, müxtəlif dulus və şüşə məmulatı nümunələrindən ibarətdir. Yaşayış yerinin yalnız üst mədəni təbəqəsindən aşkar edilmiş bina qalıqları dördkünc çiy və bişmiş kərpiclərdən hörülmüşdür [10, s. 201-207].

"Şimal-qərbi Azərbaycanın alban dövrü arxeoloji abidələri" ekspedisiyası 2023-cü ilin tədqiqat mövsümündə Qax rayonun Ləlēli kəndi ərazisində yerləşən Torpaqqala abidəsində ilkin arxeoloji tədqiqat işləri aparmışdır. (*GPS koordinatları: 41°20´46. 47"N, 46°40´44.72"E)* Abidənin ümumi sahəsi 20 hektara yaxındır. Üç hissəni özündə birləşdirən abidə; yaşayış yeri, istehkam hissəsi və nekropoldan ibarətdir [3, s. 70-72]. Tərəfimizdən qazıntı sahəsinin qərb hissəsində müdafiə divarı, oradan şərqdə yerləşən möhrə tikili və döşəmələr, otaqlar, çay daşından dairəvi formada salınmış (biri böyük, üçü kiçik olmaqla) mədəni təbəqələr struktur olaraq ilkin tədqiqata cəlb edildi. İlkin arxeoloji qazıntı işlərinə əsasən mədəni təbəqələri 4 dövr üzrə müəyyənləşdirməyə əsas verir. Bizə məlum olan mədəni təbəqələr yuxarıdan aşağıya doğru klassik orta əsr (IX-XIII), ilk orta əsr (III-VIII), antik dövr (e. ə. IV-b. e.III əsrləri) və erkən dəmir dövrünün son mərhələsi olaraq davam edir. Qazıntı sahəsindən aşkar olunmuş saxsı nümunələri qara, qırmızı, boz, sarı-qırmızımtıl rəngli olmaqla qulp, oturacaq, gövdə, ağız, boğaz, lülək fraqmentlərdən ibarət olmuşdur. Dulus məmulatı küpə, küp, qazan, dopu tipli qablara məxsusdur. İlk tədqiqatlar yaşayış yerlərinin antik və ilk orta əsrlərdə şəhərtipli məntəqə olduğunu söyləmək ehtimalını artırır [3, s. 70-72].

İlkin orta əsr yazılı mənbələrində ilk orta əsr Qəbələ şəhərindən əlavə tədqiq edilən dövrdə digər ticarət əhəmiyyətli şəhərlərin Bərdənin (Partav), Çoranın (Çola) Dərbəndin, Paytakaranın, Beyləqanın, Amarasın, Hunan (Xuinarakert), Xalxal şəhər yerlərinin adları haqda məlumat verilir [7, s. 125]. Uti əyalətində albanlar savdeylər, utilər, saklar digər tayfalar yaşadığı qeyd olunur. Albaniyanın qərb ərazisində olan şəhərlərinin (Xal-xal, Paytakaran) ictimai-siyasi tərkibi, feodal və ruhani iyerarxiyasının mövcud olması o cümlədən siyasi tarixi, siyasi quruluşu, ərazisi inzibati bölgüsü, etnik tərkibi haqqında məlumatlar daha çox, alban gürcü, erməni mənbələrində üstünlük təşkil edir [7, s. 25-48].

Qərb tərəfdə Qafqaz Albaniyası İberiya ilə həmsərhəd olub. Albaniyanın IV-VII əsrlərdə sərhəddi Ağstafa çayının Kür çayına töküldüyü yerdən, indiki Zaqatala rayonunun ərazisi, Andiy dağının ətəklərinə qədər yerlər daxil olmaqla keçirdi [5; 20, s. 29] Albaniyda Kür

çayının sahilində "Xalxal" və ya "Xaqxaq" adlı şəhər yeri haqqında ilk orta əsr müəllifləri Aqafangel [7, s. 139] alban tarixçisi M.Kalankaytuklu məlumat verirlər. Qeyd olunur ki, Xalxal şəhəri Uti vilayətində yerləşirdi. Müəllif alban şəhəri Xalxalın Albaniya ilə İberiyanın sərhədində yerləşdiyini [19, s. 72-74] və bu şəhərin III əsrdə alban çarlarının qış iqamətgahı olduğunu göstərir.

Qeyd edildiyi kimi, M.Kalankaytuklu Mehranilərin iqamətgahlarından biri "Alban hökmdarlarının qış mənzili" adlandırdığı Xalxal qalası haqqında məlumat verir [5; 7, s. 139] Vardanın Mehran adlı nəticəsi üç il ərzində Girdiman qalasını tikdirmişdi [5, s. 101]. Girdiman vilayətini Mehranilər hakim sülalə olaraq şəhər-qala, vilayət mərkəzi, sənətkarlıq və ticarət əlaqələri olan inzibati kilsə vahidlərindən birinə çevrilmişdir [5. s. 152]. Tədqiqatlarda 488-ci ildə çağırılan Aquyen kilsə məclisində təsdiqləyici sənədlərə imza atan şəxslər arasında Mehranilər nəslindən olan Gidiman hakimi Cəsur Vardanın da olduğu qeyd olunur [21, s. 103]. Bu isə onu deməyə əsas verir ki, Girdiman hakimliyi siyasi-ideoloji təsir gücünə sahib idilər.

K.Trever Xalxal şəhəri ilə bağlı yazır: "Kürün sağ sahilindəki şəhərlərdən biri adı dəfələrlə çəkilən Xalxal (Lala) şəhəridir. Şimali Qafqazın köçəri xalqları əvvəl Xalxal şəhəri yaxınlığında düşərgə salıb dayanır, sonradan hücumlarını davam etdirirlər" [17, s. 264-265]. Tədqiqatçılar bu şəhərin qalıqlarının Qazax rayonu ərazisində, Ağstafa-İrəvan şose yolundan 2 km aralıda, çayın kənarında yerləşdiyini qeyd edirlər [12, s. 119-123; 17]. Bu isə şəhərin hərbi və ticarət yollarının kəsişdiyi yaşayış məntəqəsi olması ilə izah olunur ki, bu da hazırkı dövrdə Qərb qapısı adlanan Qazax rayonunun təbii-coğrafi mövqeyinə uyğun gəlir.

Tədqiqatçılardan F.Muradova Xalxal şəhərinin Albaniyada Kür çayından cənubda, Kartlinin sərhədi yaxınlığında yerləşdiyini qeyd edir. "Bu dövrdə Kartlinin sərhədləri şərqdə Xunan qalasına çatırdı, onun cənubunda Xalxal şəhərinin yerləşdiyi Albaniya başlanırdı ki, bu da Lala məntəqəsinin yerləşdiyi yerə uyğun gəlir". F.Məmmədov Xalxal şəhərinin lokalizasiyası barədə yazır: "Avey dağı ərazisində qədim məbədlərin çox olması antik və ilk orta əsrlərdə buranın (Qazax nəzərdə tutulur) mədəni mərkəzlərdən biri olduğunu göstərir. Damçılı aşırımı (keçmiş Aşırlı kəndinin yeri) və "Qarabağın döşü" adlanan yerdəki yaşayış məntəqələri və Şişqaya ətrafındakı şəhər yeri və Alban şəhər yerinin böyüklüyü deyilənləri təsdiq edir. Şişqaya ətrafındakı şəhər yerli albanların Xalxal şəhərinin qalıqlarıdır. Şəhər yerinin üç tərəfi qala divarları ilə və yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir [8, s. 54-56]. Bu şəhərgah Aveydağın Şişqaya hissəsinin cənub, qərb və şərq ətəklərində yerləşir və üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Bu sıldırım qayalar arasındakı sahələrdə şəhərgah inşa edilmişdir [6]. Qala divarlarının şərq tərəfində aparılan tədqiqat nəticəsində təqribən 40 metr uzunluğunda divarlar aşkar edilmişdir. Qala divarlarının üzərində olan yarımdairə formalı bürclərin arasındakı məsafənin 10-13 metr olduğu müəyyənləşdirilmişdir. Qazıntı sahəsində qorunub saxlanmış qala divarlarının hündürlüyü 2-3,5 metrdir. Arxeoloji abidədə tapılmış materiallar əsasında tədqiqatçılar onun ilk orta əsrlərdə yaranması qənaətinə gəlmişlər. Abidənin ilk orta əsrlərdə salınmış Xalxal (Lala) şəhərinin qalıqları olması ehtimalı irəli sürülmüşdür [8, s. 54-56].

Albaniyada baş verən siyasi hadisələrlə əlaqədar yazılı mənbələrdə "alban çarlarının qış iqamətgahı" kimi adı çəkilən Xalxal şəhəri indiki Qazax rayonu ərazisində yerləşir. Tədqiqatçı Q.Qeybullayev Xalxal şəhərinin lokalizasiyası ilə bağlı fikir bildirir. Müəllif yazır ki: "Albaniyada V. əsrdən alban çarlarının iqamətgahı kimi məlum olan bu şəhər Uti vilayətindəki Girdimanda yerləşmişdir. O, qeyd edir ki, həmin yerdə Əskipara kəndi yerləşir" [15, s. 147]. Sözügedən kənd (Əskipara) Qazax rayonu ərazisində qədim yaşayış yeridir.

Lala qalası Yerevan-Ağstafa şosse yolundan 2 km aralı olan indiki Çaxmaqlı kəndinin yerində deyil, alçaq təpə üstündə, yerli əhalinin Didvan adlandırdığı qala qülləsinin olduğu yerdə yerləşmişdir. Mənbələrdə adı çəkilən Lala stansiyası Ağstafaçay dərəsindən keçib, Semyonov aşırımı ilə Tiflisdən Yerevana, oradanda Naxçıvana və İrana gedən magistral yolun üstündə yerləşdiyi qeyd olunur. S.T.Yeremyan Lala dayanacağının Ağstafa çayı hövzəsində lokallaşdırır. Lala dayanacağı S.T.Yeremyan tərəfindən erməni və gürcü mənbəyində Albaniyanın şahlarının qış iqamətgahı kimi tanınan Xalxal şəhəri ilə eyniləşdirilir [7, s. 118-119].

"Şəhər məntəqələrinin bəzilərinin ayrı-ayrı tayfaların inzibati, sosial-iqtisadi və mədəni mərkəzləri olduğu" qeyd edilir [13, s. 58]. Hunlardan bəhs edərkən V-VI əsr Qazax-Ağstafa ərazisində Xalxal, Ağhun və Xunan oykonimlərinin (yer) adlarını çəkirlər. "Hun" etnonimi Altay dillərinə məxsus söz olub qədim türk dillərində "kün" yəni "xalq" mənasında işlənmişdir. Yaşayış yerinin Xalxal yaşayış məntəqəsinin adının etimologiyasına görə türk dili leksikonuna əsaslanaraq xalq arasında bu sözün "qışlaq", "mal ağılı" mənasında işləndiyi bildirilir [7, s. 139]. Şübhəsiz ki, bu məsələyə real yanaşdıqda bir qayda olaraq "etnonim toponimdən deyil, toponim etnonimdən törənir" fikri daha məntiqə uyğun ola bilər. Qədim oğuz-türk dilində "xal" sözünün praktik mənası "dağ" sözü olub "nişan" anlaşılmışdır. Xal-xalın Lala adlandırılmasına gəlincə, bu da lalənin ləçəyindəki qara xalın görünüşündən yaranmışdır. Lala sözünün özü xal-xal sözünün fonetik dəyişikliyindən yarandığı ehtimal olunur. Xalxal sözünün iştirak etdiyi bir sıra toponimlərdə mövcuddur. Xalxal (Naxçıvan), Daşxalxal (Şəki), Xalxalqışlaq (Oğuz rayonu) adları da bu toponimdən yaranmışdır Azərbaycandan kənarda bu adda ərazi vahidləri Xalxal şəhəristan (İranda Cənubi Azərbaycanın Ərdəbil ostanında bölgə), Xalxal livası (Osmanlı imperiyasının vilayətinin livası) mövcuddur [4]. Yaxın gələcəkdə qədim yaşayış yeri olan Xalxal şəhər xarabalığında arxeoloji qazıntıların aparılması zəruridir. Azərbaycanın Qərb qapısı adlandırılan Qazax ərazisindəki ilk və orta əsrlər dövrü yaşayış yerlərinin tədqiqi öz aktuallığını hələ də saxlayır.

Qədim yaşayış yerlərindən biri Tatlı yaşayış yerinin qalıqlarıdır. Abidə Ağstafa rayonu ərazisində qeydə alınmışdır [16, s. 42-44]. Yerli əhali tərəfində "Saray qalaçası" adlandırılan yaşayış yeri hündür təpə üzərində yerləşir. Tatlı yaşayış yeri eyni adlı kəndin adı ilə bağlı olmuşdur. Arxeoloji tədqiqatlar zamanı yaşayış yerinin tikili qalıqlarından olan qala divarları üzə çıxarılmışdır. Tikintisində yerli inşaat materialı olan yonulmuş əhəng daşlarından istifadə edilmişdir. Ümumi sahəsi 5 hektara yaxındır. Yaşayış yerinin divar qalıqlarının eni 1,5 m, hündürlüyü isə 3 m ölçülərində qeydə alınıb [16, s. 42-44]. Sözügedən yaşayış yerindən üç nefli xristian məbədinin qalıqları da aşkar edilmişdir. "Tatlı məbədi" buradakı ilk orta əsr yaşayış yerinə məxsusdur. Həmin ərazidə uzunluğu 38 sm, eni 24-29 sm olan kirəmitlər üzə çıxarılmışdır. Bu kirəmitlərdən məbədin dam örtüyündə istifadə olunmuşdur. Belə ölçü kirəmitlərə Albaniyanın ilk orta əsr abidələrində təsadüf olunmuşdur. Araşdırmalardan belə qənaətə gəlmək olar ki, bu cür kirəmitlərdən istifadəyə VI-VII əsrlərdən təsadüf olunur. Əvvəllər tikilinin oyuğu cübbələrin saxlandığı yerdə, səcdəgah absidası istiqamətində açılmışdır. Xotavəng məbədində pəncərə oyuqları var. Həmin oyuqların yuxarı hissəsi nalşəkillidir. Qazıntılar zamanı aşkar edilən saxsı məmulatlarına görə məbədin ilkin tikintisi VI-VII əsrlərə aid edilir. Nalşəkilli pəncərə oyuqlarının olması Aşağı Əskipara, Yuxarı Əskipara alban məbədlərində də təsadüf edilir. Ağstafa rayonu Tatlı kəndi ərazisində tapılmış xaçdaş, üzərindəki xaçın aşağı qolunun hər iki yanında maraqlı bitki təsvir edilmişdir. Tatlı daşı öz daxili quruluşu etibarilə VIII-X əsrlərə aid Govurqala (Ağdam rayonu) məbədinin divarına həkk

edilmiş xaçı xatırladır. Tatlı xaçdaşında hörmə naxışdan ibarət haşiyə yoxdur. Bütün bunları nəzərə alaraq, həmin xaçdaşı IX əsrə aid etmək olar [16, s. 42-44]. Bu məbəd buradakı orta əsr yaşayış yerinə məxsusdur.

Arxeoloq Ş.N.Nəcəfov Qazax rayonunun Ürkməzli kəndi ərazisində Qazax-Əskipara şosesi yolundan 200 metr aralıda, Coğazçayın sol sahilində yaşayış yeri aşkar edilmişdir. Həmin yaşayış yerindən əldə edilən maddi qalıqların tunc və antik dövrün ilk orta əsrlərə aid keramika nümunələrinin olduğu qeyd edilir [9, s. 340-341]. Arxeoloji abidələrlə zəngin olan bu bölgədə hələ xeyli sayda arxeoloji-tarixi abidələr vardır ki, tədqiqatlardan kənarda qalıb və onların aşkar edilərək arxeoloji qazıntılara cəlb edilməsi bölgənin qədim dövr tarixinin qaranlıq məqamlarının aydınlaşdırılması baxımdan əhəmiyyətli olardı.

**Nəticə.** Qafqaz Albaniyasının Uti vilayətinə daxil olan Şimal-qərb torpaqları ilk orta əsrlər dövründə strateji mövqedə yerləşən və dövlətin ictimai-siyasi və ideoloji həyatında rolu olan tarixi ərazilərimizdəndir. Sözügedən ərazilərimizdə antik və ilk orta əsrlər dövrü salınmış yaşayış yerlərinin bolsulu çayların vadisində yerləşməsinin iqtisadi-məhəlli səbəblərindən biri də ticarət əlaqələrinin yaradılması idi. Ərazidə davamlı yaşayışın və fəal həyat tərzinin olmasını sübut edən maddi mədəniyyət nümunələri vardır. Arxeoloji tədqiqatlar sübut edir ki, strateji əhəmiyyətli əlverişli təbii-coğrafi mövqeyə malik olan şəhər tipli yaşayış məntəqələrimiz təbii istehkamları ilə seçilir. Bütün bunları nəzərə alaraq yaxın gələcəkdə Şimal-qərb torpaqlarımızda arxeoloji qazıntıların davam etdirilməsi yeni yaşayış yerlərimizin, digər maddi mədəniyyət abidələrimizin tədqiq olunub elmi dövriyyəyə daxil edilməsinə imkan yaradacaq.

## ƏDƏBİYYAT


1. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 424 s.
2. Eminli C.T., İsgəndərov E.Ə. Qəbələ (Səlbir) şəhər yerində arxeoloji tədqiqatlar (Qəbələ rayonu) / AAT – 2012: Toplu. Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunur, Bakı, 2013, s. 237-245.
3. Əliyev T.V., Yusifova D.S., Rəcəbov M., Məmmədli S. Torpaqqalada ilkin arxeoloji qazıntı haqqında / Elmi Sessiyanın Tezisləri. Bakı, 2023, s. 70-72.
4. Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sözünün təşəkkülü və inkişafı. Bakı: Elm və təhsil, 2016, 348 s.
5. Kalankatuklu Moisey. Alban tarixi, Mxitar Qoş. Alban salnaməsi / Tərcümə və şərhlər Z.M.Bünyadov. Bakı: Avrasiya-Press, 2006, 293 s.
6. Məmmədov A.M., Abbasova E.C. Qazax bölgəsində arxeoloji və etnoqrafik tədqiqatlar. Gəncə, 2008, 226 s.
7. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006, 400 s.
8. Muradova F. Qazaxda Alban abidələri // Elm və həyat, 1992, № 4-6, s. 13-14.
9. Nəcəfov Ş.N. Qazax və Ağstafa rayonları ərazisində 2015-2016-cı illərdə aparılmış arxeoloji kəşfiyyat işlərinin yekunları / Azərbaycanda Arxeoloji Tədqiqatlar, 2015-2016. Bakı, 2017, s. 336-343.
10. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə (Arxeoloji qazıntı materialları əsasında). Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961, 160 s.
11. Cəbiyev Q.C., Abbasova E.İ, Nemətov S.D. Qəbələ orta əsrlərdə / Azərbaycanda Arxeoloji Tədqiqatlar, 2009. Bakı, 2010, s. 244-251.

12. Алиев К.Г. Античная Кавказская историческая топонимика // Изв. Азерб. ССР. Сер. истории, философии и права, 1969, № 4, с. 119-123.
13. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н. э.-III в. н. э. Баку: Элм, 1990, 243 с.
14. Ваидов Г.М. Первые итоги археологических работ в Торпагкале / МКА. VI с., Баку: Изд. АН Азерб.ССР, 1965, с. 201-210.
14. Гейбуллаев Г. К этногенезу азербайджанцев. Баку, 1991, 147 с.
15. Геюшев Р.Б., Нуриев А.Б. Поселение Татлы / АЭИА. Баку: Элм, 1975, с. 42-44.
16. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н. э.-VII в. н. э. Москва-Ленинград: Изд-во АН СССР, 1959, 391 с.
17. Ямпольский З.И. К изучению древнего пути из Каспийского моря по реке Куре через Грузию к Черному морю / Институт истории им. И.А.Джавахишвили (Тбилиси). Труды. Т. II, Тбилиси: АН Груз. ССР, 1956, с. 161-180.
18. Мамедов Т.М. Хозяйство и города Азербайджана по древнеармянским источникам // Изв. АН Азерб. ССР. Сер. общ. наук, 1964, № 2, с. 69-74.
19. Мамедов Т.М. Кавказская Албания (IV-VII вв.). Баку: Маариф, 1993, 214 с.
20. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании. Баку, 1986, 103 с.
21. https:// paralel. az artikcle

***AMEA Arxeologiya və Antropologiya İnstitutu***
***E-mail: durdaneyusifova57@gmail.com***

**Durdana Yusifova**

## THE FIRST MEDIEVAL SETTLEMENTS OF THE NORTH-WESTERN REGION OF AZERBAIJAN

Archaeological studies and source data prove that the North-west lands were in the territory of Caucasian Albania. The settlements in the north-western lands were mainly located on the banks of rivers, where there were natural resources that could ensure the development of various handicrafts, and where there was a favorable strategic position to defend against enemy attacks over time. Due to the progress of the society, different types of residences have appeared. Village-type settlements, urban-type settlements and big cities. It is one of the urgent issues of archeology to specify the localization of the first medieval settlements of the North-west region, whose geographical coordinates are given in the source data, based on material sources.

**Keywords:** *Qabala, Torpakkala, Tatli, Khalkhal, political center, archaeological, Gala-City.*

**Дурдана Юсифова**

## ПЕРВЫЕ СРЕДНЕВЕКОВЫЕ ПОСЕЛЕНИЯ СЕВЕРО-ЗАПАДНОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА

Археологические исследования и исходные данные доказывают, что земли северо-запада находились на территории Кавказской Албании. Поселения в северо-западных землях располагались преимущественно по берегам рек, где имелись природные ресурсы, которые могли обеспечить развитие различных ремесел, и где было выгодное стратегическое положение для защиты от последующих нападений противника. В связи с прогрессом общества появились различные типы поселений: поселения деревенского типа, поселки городского типа и крупные города. Процесс формирования поселений определялся уровнем развития производства. Одной из актуальных задач археологии является уточнение локализации первых средневековых поселений Северо-Западного региона, географические координаты которых приводятся в исходных данных, на основе материальных источников.

**Ключевые слова:** *Габала, Торраггала, Татлы, Халхал, политический центр, материальная культура, крепость-город*

*(Professor Arif Məhəmmədov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 14.05.2024**
**Son variant 13.06.2024**